*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:12.09.2024*
*Kabul tarihi |Accepted:22.12.2024*
*Yayın tarihi |Published:25.12.2024*

**Daşqin Məhəmmədli**

https://orcid.org/0000-0002-6875-8091
*Doctor of Philosophy in History, Faculty of Economics and Social Sciences, Baku State University, Azerbaijan, dashqin.muhammedli@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məhəmmədli, D. (2024). Kitabxana Saytlarının Funksiyaları və Onların Təsnifatı *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4708-4717

# Kitabxana Saytlarının Funksiyaları və Onların Təsnifatı

***Xülasə***

*Azərbaycan xalqının ümummilli lideri, milli müstəqilliyimizin və dövlətçiliyimizin xilaskarı, yaxın dövr dünya siyasətinin parlaq ulduzu, millətimizin böyük oğlu, dahi, uzaqgörən dövlət xadimi, ulu öndər Heydər Əliyevin müdrik siyasi xəttində daim elmin, mədəniyyətin və təhsilin qlobal inkişafı məsələləri prioritet mövqe tutmuş, məhz bu dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində bütün sahələrdə olduğu kimi, məhz adı çəkilən sahələrdə də qlobal inkişaf prosesi baş vermiş və getdikcə sürətlənmişdir. Kitabxana saytları, istifadəçilərə müxtəlif kitabxana resurslarına, xidmətlərinə və məlumatlara onlayn şəkildə daxil olma imkanı verən veb platformalardır. Bu saytlar, fiziki kitabxanaların xidmətlərini virtual mühitə gətirərək, istifadəçilərə rahat və asan xidmət təqdim edir. Məqalədə konkret kitabxana nümunəsi əsasında təhlillər aparılmış və statistik göstəricilər qeyd edilmişdir.*

**Açar sözlər:** Kitabxana, sayt, elektron kataloq, elektron xidmət, kataloqlaşdırma

# Functions and classification of library sites

***Abstract***

*In the wise political line of Heydar Aliyev, the nationwide leader of the Azerbaijani people, the saviour of national independence and statehood, the bright star of the world politics of the modern era, the great son of our nation, the brilliant, visionary statesman, the great leader, the issues of global development of science, culture and education were always in the priority position, it was precisely thanks to the visionary policy of this brilliant personality, as in all areas, the process of global development was realised and accelerated in these areas. Library sites are web-based platforms that*

BY NC
Creative Commons Licence

*allow users to access a variety of library resources, services and information online. These sites provide convenient and easy service to users by offering physical library services in a virtual environment. The article carried out an analysis based on a specific example of a library and noted statistical indicators.*

***Keywords:*** *Library, Site, Electronic Catalogue, Electronic Catalogue, Electronic Service, Cataloguing*

## Giriş

Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyev daim mədəniyyətə, xüsusilə, kitaba, kitabxanaya yüksək qiymət vermiş, kitab və kitabxananı mədəniyyətin ən əsas vasitələri və qiymətli tərkib hissəsi kimi dəyərləndirmişdir. "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"-deyən ulu öndərin bu proqram xarakterli, olduqca yüksək elmi və mədəni əhəmiyyətə malik kəlamı milli kitabxana siyasətimizin başlıca konsepsiyası kimi qiymətləndirilmişdir.

Məhz ulu öndərin müdrik siyasəti nəticəsində 1995-ci ildə Azərbaycan Respublikasında ilk demokratik konstitusiyanın qəbul edilməsi, eləcə də, "Mədəniyyət haqqında" (1998), "Təhsil haqqında"(2009), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"(1998), "Kitabxana işi haqqında"(1998) və s. qanunların, çoxlu sayda qərar və layihələrin qəbul edilməsi, o cümlədən, bu siyasətin layiqli davamçısı, möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007), "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi haqqında sərəncamların verilməsi müstəqil Azərbaycan Respublikasının elmi-mədəni və mənəvi həyatında olduqca yüksək əhəmiyyət kəsb edən hüquqi-elmi sənədlər kimi məhz bu sahələrin kompleks fəaliyyətini demokratik prinsiplər əsasında qurulan metod və vasitələrlə, mütərəqqi-hüquqi üsullarla tənzimləyir (Azərbaycan Respublikasının Konstitusiyası, 2004).Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti, tələbə-magistr kontingenti öz informasiya tələbatlarının dinamikliyinə və müxtəlifliyinə görə özünəməxsus mahiyyət kəsb edir. Xüsusilə, burada Universitetin profilinə uyğun olaraq xarici dillərdə olan ədəbiyyatın daha üstünlük təşkil etməsi, bu ədəbiyyatın kitabxana fondunda komplektləşdirilməsi prosesinin mürəkkəbliyi, informasiya tələbatının rəngarəngliyi şəraitində təşkil edilən kitabxana-biblioqrafiya və informasiya xidməti prosesinin (elektron kataloq vasitəsilə) vəziyyətini öyrənmək, sistemləşdirmək, təhlil və müqayisələr aparmaq ciddi elmi-nəzəri, metodik və təcrübi əhəmiyyət kəsb edir (Ismayilov, Mahammadli & Khudiyeva, 2022). Məhz buna görə də,

"Azərbaycan ali məktəb kitabxanalarının elelktron kataloqu vasitəsilə informasiya tələbatçılarına xidmət işinin xüsusiyyətləri və müasir vəziyyəti (Azərbaycan Dillər Universitetinin Elmi Kitabxanasının iş təcrübəsi əsasında)" mövzusu ətrafinda ciddi araşdırmalar və nəzəri tədqiqatlar əsasında dolğun elmi ümumiləşdirilmənin aparılmasını öz nəzəri mahiyyəti və elmi aktuallığı etibarilə məqsədəuyğun hesab etmək olar. Məhz bu elmi-tədqiqat işində Azərbaycan Respublikasının müstəqilliyi şəraitində Azərbaycan Dillər Universitetində kitabxana-informasiya xidmətinin təşkili aspektində ilk kompleks araşdırmalar aparılmış, zəngin faktik materiallar və statistik göstəricilər əsasında müqyisəli təhlillər verilmiş, təklif və tövsiyələr ümumiləşdirilmiş, beləliklə, bitkin elmi ümumiləşmə formalaşdırılmışdır (Ismayilov & Gasimli, 2022).

**1. Problemin öyrənilmə səviyyəsi**

Problemi tədqiq edib öyrəndikdə məlum olur ki, Azərbaycan ali məktəb kitabxanalarının elelktron kataloqu vasitəsilə informasiya tələbatçılarına xidmət işinin xüsusiyyətləri və müasir vəziyyəti (Azərbaycan Dillər Universitetinin Elmi Kitabxanasının iş təcrübəsi əsasında) mövzusuna ayrı-ayrı müxtəlif aspektlərdən görkəmli alim və tədqiqatçıların sanballı elmi əsərlərindəmüəyyən qədər toxunulmuşdur. Azərbaycanda milli kitabxanaşünaslıq elminin və elmi məktəbinin banisi, ölkəmizdə kitabxana işi tarixinin ilk tədqiqatçıcı, ali kitabxanançılıq-biblioqrafiya və informasiya təhsilinin təşkilatçısı və nəzəriyyəçisi, BMT yanında Beynəlxalq İnformaciyalaшdırma Akademiyasının akademiki, əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası prezidentinin fərdi təqaüdçüsü, Şöhrət ordenli, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfovun çoxsaylı elmi əsərlərində, yazdığı dərsliklərində, monoqrafiyalarında, məqalələrində bu problemə toxunmuş, müxtəlif aspektlərdən təhlillər və əhəmiyyətli nəzəri ümumiləşdirmələr aparmışdır.

Professor A. Xələfovun 1961-ci ildə müdafiə etdiyi «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» mövzucunda namizədlik dissertasiyasında, 1974-cu ildə başa çatdırdığı «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» mövzucunda doktorluq dissertasiyasında, eləcə də, 3 cildlik «Azərbaycanda Kitabxana işinin tarixi», və 3 cildlik «Kitabxanaşünaslığa giriş» dərsliklərində, o cümlədən, "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (təkliflər, layihələr, proqnozlar)", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Kitabxana və cəmiyyət" və s. monoqrafiyalarında eləcə də, çoxsaylı məqalələrində və ayrı-ayrılqda bir sıra böyük ali təhsil müəssisələrinin, o cümlədən

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası haqqında yazdığı əsərlərində müvafiq aspektdə problemin müxtəlif istiqamətlərinə toxunmuşdur.

Xüsusilə, 1999-cu ildə, Əməkdar elm xadimi, professor A. A. Xələfovun bilavasitə təşəbbüsü və rəhbərliyi altında BDU-nun Kitabxanaşünaslıq kafedrasının nəzdində "Kitabxana proseslərinin kompüterləşdirilməsi" Elmi-Tədqiqat Laboratoriyasının fəaliyyəti və Laboratoriyanın əməkdaşlarının müvafiq aspektdə apardıqları tədqiqatları və əsərləri də elmi-tədqiqat işinin mövzusu ətrafında aparılan araşdırmalar və nəzəri tədqiqatlar kontekstində olduqca mühüm əhəmiyyət kəsb edir (Ismayilov & Khalafova, 2022a). Həmçinin, N. İsmayılov, M. D. Nasrin, C. Cəfərov, Z. İbadova və digər tədqiqatçılar da öz araşdırmalarında problemə müəyyən qədər toxunmuşlar (Ismayilov & Khalafova, 2022b). Qeyd etdiyimiz kimi, mövzunun müəyyən problem məsələlərinə toxunulsa da bütövlükdə "Azərbaycan ali məktəb kitabxanalarının elelktron kataloqu vasitəsilə informasiya tələbatçılarına xidmət işinin xüsusiyyətləri və müasir vəziyyəti (Azərbaycan Dillər Universitetinin Elmi Kitabxanasının iş təcrübəsi əsasında)" mövzusu tədqiqat obyekti olmamışdır. Bu baxımdan bu tədqiqat işinin qarşısında duran əsas məqsəd də məhz bu problemin dərindən elmi təhlilini vermək və bütövlükdə kompleks nəzəri ümumiləşdirməsini ortaya qoymaqdan ibarətdir.

Akademik kitabxanaların elektron kataloqu. Tədqiqatın predmeti: Azərbaycan ali məktəb kitabxanalarının elelktron kataloqu vasitəsilə informasiya tələbatçılarına xidmət işinin xüsusiyyətləri və müasir vəziyyəti (Azərbaycan Dillər Universitetinin Elmi Kitabxanasının iş təcrübəsi əsasında)

**2. Tədqiqatın məqsəd və vəzifələri**

Azərbaycan Dillər universitetində oxuculara xidmət işinin təşkili xüsusiyyətlərinin öyrənilməsi; Universitetdə ayrı-ayrı oxucu qruplarına kitabxana-biblioqrafiya və informasiya xidmətin sahəsində kompleks fəaliyyətin araşdırılması; informasiya istifadəçilərinin təlabatlarının ödənilməsi üçün görülən işlərin araşıdırılaraq ümumiləşdirilməsi; Universitetin çoxminli oxucu kontingetinə kitabxana-biblioqrafiya və informasiya xidməti sahəsində qabaqcıl təcrübənin metod və vasitələrindən istifadə istiqamətində görülən işlərin təhlili; müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində aparılan fəaliyyətin sistemli araşdırılmasının həyata keçirilməsi; eləcə də, bütövlükdə respublikamızda ali məktəb kitabxanalarında oxuculara ximdət işinin təşkili ilə bağlı yazılmış əsərlərlə tanış olmaq, onları sistemləşdirərək mövzunun araşdırması və tədqiqatları bitdikdən sonra müəyyən olunmuş nöqsanları qeyd edib tövsiyələr vermək elmi-tədqiqat işinin qarşısında duran əsas məqsəd və vəzifələrdir.

**3. Tədqiqatın metdoları**

Tədqiqat işində ənənəvi metodlara üstünlük verilmiş və aşağıdakı metodlardan istifadə edilmişdir:

1. Sənədlərin öyrənilməsi;
2. Müqayisəli təhlil metodu;
3. Sistemli yanaşma metodu;

**4. Tədqiqatın mənbəşünaslıq bazası**

Tədqiqat prosesində kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiyaya dair elmi-nəzəri və metodik ədəbiyyatdan, eləcə də müvafiq aspektdə mövcüd olan rəsmi xarakterli sənədlərdən, o cümlədən dövri nəşr materiallarından və mötəbrəliyi əsaslandırılmış əlaqədar onlayn(web) resurslardan istifadə edilmişdir.

**5. Tədqiqatın elmi yeniliyi**

Tədqiqat işində ilk dəfə olaraq Müstəqillik illərində Dillər Universitetinin kitabxanasında elektron kataloq vasitəsilə oxuculara xidmət işinin təşkili problemləri sistemli elmi araşdırmalara cəlb edilmiş, bu aspektdə maraqlı faktik materiallar və statistik göstəricilər elmi dövriyyəyə daxil edilmiş, mötəbər nəzəri mənbələrdən istifadə edilərək kompleks xarakterli bitkin nəzəri ümumiləşdirmə ortaya qoyulmuşdur.

Bu elmi-tədqiqat işində Azərbaycan Respublikasının müstəqilliyi şəraitində dövlət təhsil sisteminin optimal həyata keçirilməsi prosesinə məhz təhsil müəssisələrinin, xüsusilə də, ali təhsil müəssiələrinin kitabxanalarının töhfələri, bu prosesdə onların tutduğu yeri və rolu, başlıca funksiyaları, həmçinin, həll etməli olduqları bir çox problemləri də əks etdirilmiş və əsaslandırılmışdır (İsmayılov, Mahammadli & Gasimli, 2023). Azərbaycan Respublikasının müstəqilliyi şəraitində ölkədə kitabxana-informasiya sahəsinin optimallaşdırılması və kompleks inkişafı sahəsində uğurlu ümumdövlət siyasəti həyata keçirilməkdədir. Azərbaycan dövlətinin kitabxana-informasiya sahəsinə dair ümumdövlət siyasətində təhsil müəssisələrinin kitabxanaları, xüsusilə ali təhsil ocaqlarının kitabxana-informasiya fəaliyyətinin maddi-texniki və resurs bazasının gücləndirilməsi və kompleks inkişafı məsələləri mühüm yer tutur.

Ali məktəb kitabxanaları xalq təsərrüfatının və mədəniyyətin bütün sahələri üçün yüksək ixtisaslı kadrların formalaşmasında böyük rol oynayırlar. Ali məktəb kitabxanası oxuculara fərqli xidmət göstərir, geniş və operativ şəkildə müvafiq profil üzrə elm və texnikanın son nailiyyətləri haqqında məlumat verir, kitabxana-biblioqrafiya biliklərini (kitabxana və informasiya mənbələrindən istifadə, biblioqrafik nəşrlərin sərgisi, məlumat nəşrlərinin xülasəsi və s.) təbliğ edir (İsmayılov & Məhəmmədli, 2024). Elmi-tədqiqatlara kömək göstərməsində və

elmi kadrların hazırlanmasında ali məktəb kitabxanalarının rolu elmi-tədqiqat institutlarının kitabxanalarının rolu ilə uyğun gəlir. Bu kitabxanalar ali məktəbin əsas ixtisası və onun elmi tədqiqatlarının mövzuları üzrə elmi ədəbiyyatın daha tam fondunu cəmləşdirir. Onlar ali məktəb dairəsində kafedralar, laboratoriyalar və bütün kollektiv üçün ən yeni ədəbiyyat haqqında informasiyanı təşkil edən mərkəzlərdir. Müasir dövrümüz elmin inkişafı dövrüdür və onun əsasını təlim, elmi-tədqiqatlar təşkil edir və bunların da əsasında kitabxanalarda toplanmış kitablar, jurnallar və elmi resurslar durur. Universitet kitabxanaları təlim və elmi-tədqiqatın fondudur və başqa sözlə universitetin ürəyi sayılır. Hal-hazırda universitetləri qiymətləndirəndə onun kitabxanasının zənginliyi, əhəmiyyəti əsas götürülür. Kitabxanadan istifadə etmədən heç bir təlim və elmi-tədqiqat həyata keçirilə bilməz. Müasir cəmiyyət müasir ali təhsil sisteminə, xüsusilə bilik menecmenti, informasiya texnologiyaları və ömürlük öyrənməyə ehtiyac duyur. Universitetlərin təhsil mərkəzi kimi elmi-tədqiqat fəaliyyətinin əsas məqsədi vətəndaşlara təlim verib və cəmiyyət üçün lazımlı mütəxəssis kimi yetişdirməkdən ibarətdir.

Ali təhsil müəssisələrinin informasiyalaşdırılması, müasir təhsil sistemlərinin inkişafında əsas amillərdən biridir. Bu proses ali təhsil müəssisələrində məlumatların toplanması, saxlanması, emalı və təqdim edilməsinin rəqəmsal mühitdə həyata keçirilməsini əhatə edir. İnformasiya texnologiyalarının və rəqəmsal alətlərin tətbiqi təhsil prosesini daha effektiv və əlçatan edir. Ali təhsil müəssisələrinin informasiyalaşdırılması təhsil sahəsində inkişafa xidmət edir və tələbələrin, müəllimlərin və idarəçilərin işini asanlaşdırır. Bu proses, həmçinin təhsil sisteminin modernləşdirilməsi və qlobal miqyasda rəqabətliliyini artırmaq baxımından çox vacibdir. Ali təhsil müəssisələri, təhsil texnologiyalarının effektiv istifadəsi üçün müasir və etibarlı İT infrastrukturu qurmalıdır. Yüksək sürətli internet bağlantısı, serverlər, məlumat bazaları və bulud texnologiyalarından istifadə, tədris və idarəetmə sistemlərinin fasiləsiz işləməsini təmin edər. Ali təhsil müəssisələri, iş dünyasının tələblərinə uyğun olaraq təhsil proqramlarını nəzərdən keçirməli və bu proqramları müasir rəqəmsal texnologiyalarla uyğunlaşdırmalıdır. Həmçinin, praktik təcrübə və iş dünyası ilə əməkdaşlıq daha da gücləndirilməlidir. Bu təkliflər, ali təhsil müəssisələrinin daha müasir, effektiv və əlçatan olmasını təmin edəcək və tələbələrin bilik və bacarıqlarını daha yüksək səviyyəyə çatdırmağa kömək edəcək. Bununla əlaqəli səbəbdən ali məktəb kitabxanalarının fəaliyyətinin qurulmasından bəhs edərək bu işin əsasında duran qanun və digər direktiv sənədlər nəzərdən keçirilməlidir (Mahammadi, 2024). Beləliklə, müstəqillik şəraitində Azərbaycanın milli təhsil, o cümlədən, ali təhsil sisteminin, kitabxana fəaliyyətinin zamanın tələblərinə müvafiq şəkildə

yenidən qurulmasının, transformasiya edilməsinin ilk və vacib şərti bu sahənin müvafiq qanunvericilik bazasının, normativ-hüquqi sənədlərin yaradılması oldu.

Azərbaycan Dillər Universitetinin kitabxanasında aparılmış islahatlar və yeniliklər nəticəsində bir sıra şöbə və bölmələr birləşdirilmiş və müasir kitabxana informasiya sisteminin tələblərinə cavab verən yeni şöbələr yaradılmışdır. Həmin şöbələrin fəaliyyətlərinə nəzər saldıqda məlum olur ki, kitabxanının bütün söbə və bölmləri kitabxanada kitabxana informasiya xidmətindəki problemlərin aradan qaldırılması, oxucuların soruğularına operativ cavab vermək, kitabxananın fondunun mükəmməl şəkildə kompletkləşdirilməsi və bu kimi vacib məslələrin həlli istiqamətində çalışırlar. Həmin şöbələrin iş fəaliyyətlərini sistemli şəkildə tədqiq edib edərək aşağıdakı informasiyalar əldə olunmuşdur:

- **Dövriyyə xidmətləri:** Oxucuların müxtəlif sorğularını tez və dolğun ödəməyə çalışır, çap əsərlərindən səmərəli istifadə etməyə kömək edir, fondun qorunmasını həyata keçirir. Oxucuların kitabxanaya yazılışını təşkil edir, oxucu qrupları üzrə xidməti həyata keçirir. Fondların komplektləşdirməsində iştirak edir və bu ədəbiyyata dair oxucu sorğularını yerinə yetirir;
- **Texniki Servislər xidməti:** Elektron komplektləşdirmə, Elektron kataloqlaşdırma, Elektron tam mətnli məlumat bazaları. Şöbədə işin bütün mərhələləri 2006-cı ildən İRBİS-64 sistemi əsasında aparılır. Kitabxana fondunu azərbaycan və xarici dillərdə zəruri çap məhsulları ilə təmin edir. Bölmədə oxucu sorğusu əsasında ən çox istifadə olunan kitabların, dövri mətbuatın, dissertasiyaların elektron versiyaları yaradılır və surəti çıxarılır.
- **Məlumat-SorğuMərkəzi:** Elektron və ənənəvi kataloq və kartoteka sistemi ilə biblioqrafik xidmət göstərmək, oxucuları məlumat-biblioqrafiya bilikləri ilə maarifləndirir. Elektron kataloq vasitəsilə biblioqrafik xidmət göstərir.
- **Dövriyyə zalı:** Burada ensiklopediyalar, lüğətlər, məlumat sorğu kitabları, dərsliklər və s. ədəbiyyat növləri açıq rəf üsulu ilə yerləşdirilmişdir.Eyni zamanda yeni alınmış ədəbiyyat, eləcə də əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgiləri təşkil edilir.
- **Kompyuter zalı:** Elektron resurslardan, lokal şəbəkədən istifadənin təşkili.İstifadəçinin eyni zamanda kitabxananın lokal şəbəkəsində elektron resurslardan istifadə imkanları artmışdır. EBSCO, BİONE, JSTOR, EMERALD, ELSEVİER kimi məlumat bazalarından istifadə olunur.

Azərbaycan Dillər Universitetinin Kitabxana İnformasiya Mərkəzində görülən bu işlərdən də məlum olur ki, kitabxanada informasiyalaşdırma, oxuculara xidmət, tələbatçıların sorğularının ödənilməsi yönündəki problemlərin həllinə dair məqsədyönlü işlər görürlür. Azərbaycan Dillər Universitetinin Kitabxanasında oxuculara kitabxana-biblioqrafiya və informasiya xidməti prosesində oxucu kontingentinin əsas hissəsini təşkil edən professor-müəllim heyətinə xidmət işi basilica yer tutur. Azərbaycan Dillər Universiteti öz professor-müəllim heyətinin tərkibinə, ixtisas profilinə və digər əlamətlərinə görə spesifik səciyyə daşıyır. Burada professor-müəllim heyətinin informasiya tələbatının müxtəlifliyi, çoxşaxəliliyi və çoxistiqamətliyi nəzərə çarpan mühüm məsələ kimi qiymətləndirilməlidir. Azərbaycan Dillər Universitetinin fakültələrinin, ixtisaslarının, şöbə və bölmələrinin professor-müəllim əməkdaşları milli və müxtəlif xarici dillərdə olan ədəbiyyata olan tələbatları ilə kitabxanaya müraciət edir. Bu tələbatları əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

-Azərbaycan xalqının tarixinə, dilinə, ədəbiyyatına, mədəniyyətinə, mənəviyyatına, folkloruna, xalq yaradıcılığına, poeziyasına və s. olan informasiya tələbatları;

-Azərbaycançılıq ideologiyasına, milli azərbaycançılıq fəlsəfi konsepsiyasına olan informasiya tələbatları;

-Azərbaycan Respublikasının xarici siyasətinə, beynəlxalq əlaqələrinə, diplomatic münasibətlərinə dair informasiya tələbatları;

-Azərbaycan Respublikasında dövlət idarəçiliyinə, politoloji və siyasi msələlərə dair informasiya tələbatları;

-Azərbaycan Respublikasında dini tolerantlığa, multikulturalizm və çoxmədəniyyətliliyə dair informasiya tələbatları;

-Ən müxtəlif xarici dillərin quruluşuna, qrammatikasına, leksik-semanntik və fonetik qanunauyğunluqlarına dair informasiya tələbatları;

-Əcnəbi xalqların tarixinə, mədəniyyətinə, ədəbiyyatına və s. dair informasiya tələbatları;

-Xarici dillərdə yazılmış müxtəlif aspektli ədəbiyyata dair informasiya tələbatları;

-Milli və əcnəbi dillərdə çıxan dövri mətbuat materiallarına olan tələbatlar və s.

Göründüyü kimi, Azərbaycan Dillər Universitetinin çoxminli professor-müəllim heyəti öz informasiya tələbatlarının çoxaspektliliyinə və çoxpredmetliliyinə görə ciddi şəkildə fərqlənən, Universitetin profilinə, təhsil strategiyasına və taktikasına müvafiq olan informasiya resurslarına olan mürəkkəb tələbatı ilə seçilən oxucu qrupu kimi xarakterizə edilir. Qeyd etdiyimiz kimi Azərbaycan Dillər Universiteti ölkəmizdə elmin, təhsilin və mədəniyyətin

inkişafına ciddi töhfələr verən, onun inkişafı və tərəqqisi naminə öz fəaliyyəti ilə yüksək qiymətləndirilən ali təhsil ocağı kimi dəyərləndirilir. Burada elmin müxtəlif sahələrinə uyğun fundamental elmi tədqiqatlar aparılır, araşdırmalar təşkil edilir, əsaslı nəticələr alınır, bu nəticələr praktikaya tətbiq edilir, nəticə etibarilə Vətən elminin inkişafı və tərəqqisi prosesinə ciddi töhfələr verilir.

**Nəticə**

Kitabxana saytlarının bir çox üstünlükləri var, və bunlar istifadəçilərə çoxsaylı rahatlıqlar təqdim edir. Kitabxana saytları istifadəçilərə kitabları, elmi məqalələri və digər resursları istədikləri zaman, istədikləri yerdən əldə etməyə imkan verir. Bu, fiziki kitabxanaya getməyə ehtiyac olmadan hər kəsin məlumatlara çatmasını təmin edir. Qeyd edək ki, Kitabxana saytları müasir dövrdə böyük rol oynayır, çünki onlar bilik və məlumat əldə etmək üçün asan və rahat bir yol təqdim edir. Bu saytlar kitabları onlayn olaraq oxumağa, axtarış etməyə və ya yükləməyə imkan verir. Onlar həmçinin müxtəlif resursları bir yerdə toplamağa və məlumatın genişləndirilməsinə kömək edir. Kitabxana saytları həm fərdi istifadəçilər, həm də təhsil müəssisələri üçün vacib resurslardır. Onlar bilik bazasının daha sürətli və effektiv şəkildə yayılmasını təmin edir. Ümumilikdə, kitabxana saytları həm fərdi istifadəçilər, həm də təhsil və tədqiqat sahəsində çalışanlar üçün çox mühüm resurslardır. Onlar bilik əldə etməyi asanlaşdırır və təhsili daha əlçatan edir. Apardığımız tədqiqatlardan belə bir nəticəyə gəlirik ki Respublikamızın müstəqilliyi şəraitində ali məktəblərimizdə aparılan tədris və təhsil prosesinin optimal həyata keçirilməsində, çoxsaylı professor-müəllim və tələbə kontingentinə, müxtəlif sahə mütəxəssislərinə elmi informasiya xidmətinin göstərilməsində ali təhsil müəssisələrinin kitabxanalarının üzərinə ciddi vəzifələr düşür.

**Ədəbiyyat Siyahısı**

Azərbaycan Respublikasının Konstitusiyası (son dəyişiklik və əlavələrlə). (2004).

Ismayilov, N. I. Mahammadli, D. & Khudiyeva, V. (2022). Methods and Means of Information Search in the Digital Environment. *GRANI Journal*, *25* (5), 31-34.

Ismayilov, N. I. & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal, 25* (6), 16-22.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022a). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection).*Technium Social Sciences Journal, 33* (1), 628-637.

Ismayilov, N. I. Khalafova, S. A. (2022b). Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience).*GRANI Journal, 25* (2), 22-28.

İsmayılov, N. İ., Mahammadli, D. & Gasimli, H. H. (2023). Organızation, development and current sıtuatıon of the document flow on tourism in the regions (based on the example of the Shakı-Zagatala economıc region). *Scientific and Theoretical Almanac Grani, 2* (26), 122-127.

İsmayılov, N., & Məhəmmədli, D. (2024). Qərbi Azərbaycan Tarixinə Dair Sənəd Axınının Təşəkkülü və İnkişafı. *Akademik Tarih ve Düşünce Dergisi, 11*(6), 4483-4496.

Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu. (1999).

Mahammadi, D. H. Issues of Legal, Scientific, Theoretical, Methodological and Practical Significance as an Important Component of the Informatization of the Library Infrastructure of the Republic (Strategy For The Development of Libraries in the Regions of Azerbaijan). *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(1), 611-619.